***❒ Yol yoldaşım Elman müəllim (rayon icra hakimiyyətinin məsul işçisi) məndən də çox tələsirdi ki, əsl mənzərəni öz gözümlə görüm. Ona görə də rayon mərkəzindən üzü Şamaxıya tərəf bir neçə kilometr gedəndən sonra maşını sol tərəfə döndərdi. Süräti, demək olar ki, tamam azaldaraq, yol kənarında dayanmış bir nəfəri (qırımından Bakıya gedənə oxşayırdı) göstərib dedi:***




# Bu yol Poladlıya aparır

– Elə o camaatın adamına oxşayır, istəyirsiniz, yolu ondan soruşun, görək nə deyəcək.

Soruşuram:

– Qardaş, Poladlıya nə cür getmək olar?

- Düz gəlmisiniz, bax, bu yol özü sizi Poladlıya aparacaq.

– Qardaş, yol-iz nətərdi, “maşının altı” dəyməz ki...Deyirlər yollar yaman gündədi?

– O əvvəllər eləydi, mən özüm də o kənddənəm, on beş kilometri gəlmək saat yarım – iki saat vaxt alırdı... Bağışla, qadoy alım, adamın yediyi- içdiyi burnundan gəlirdi.

– Bəs indi necədir?

– İndi? İndi lap əladı. Allah İlham Əliyevin ölənlərinə rəhmət eləsin. Elə yol düzəltdirib ki, lap şüşə kimi. Allah işinizi avand eləsin, uzağı on beş dəqiqəyə ordasız.

Sağollaşıb yola düzəlirik. Yol yoldaşım əvvəllər, doğrudan da, acınacaqlı olduğuna inanmaq istəmədiyimi sezərək deyir:

- Bu yolu gedib- gəlmək bu tərəfin camaatı üçün, sözün əsil mənasında, zillət idi. Təsəvvür edin, rayon mərkəzinə gəlib-qayıtmaq otuz kilometr, sərf olunan vaxt isə üç saat olurdu, digər narahatlıqları hələ saymıram.

Bir neçə dəqiqədən sonra yol yoldaşım bir az irəlidəki evləri göstərib deyir:

– Müəllim, gəlib çatdıq, bax, o evlər Poladlınındır. Bu kəndin camaatı çox işgüzar, qoçaq adamlardır. Heç bir işdən, çətinlikdən qorxuları yoxdur. Əsas narahatçılıqları yol sarıdan idi.

## Abad evlər göz oxşayır

Bir məqam diqqətimi çəkir: illər boyu yolu bərbad olan kəndin, gərək evləri də yaman gündə olsun. Burada isə mənzərə tamam fərqli idi: əksər evlər yaraşıqlı tikililərdir. Bəs bu necə olur?

– Bayaq, nahaq yerə deməmdim ki, bu kəndin camaatı çox zəhmətkeşdir. Sağlıqlarına qismət, əvvəlki illərdə, o yolsuzluq şəraitində belə ev-eşik tikib-qura bilibləsə, görün, bundan sonra nələr eləyərlər də...

...Kəndin bir az hundür yerində görsənən məscidə tərəf aparan yolnan gedirik. Üzü nurlu, ağayana görünüşlü bir kişi bizə tərəf yaxınlaşır. Yol yoldaşımla şirin-şirin görüşürlər, məni də tanış edir:

– Müəllim Bakıdan gəlib (yekə çıxmasın, müşahidələrimə əsaslanıb iddia edə bilərəm ki, rayon yerində bu ifadənin çəkisi də, həzzi də başqa cürdür), “Xalq qəzeti”nin bizim bölgə üzrə müxbiridir.

– Hə, lap yaxşı, çox xoş gəlmisiniz bizim Poladlıya...

Görüşürük. Yol yoldaşım ağsaqqalı mənə təqdim edir:

– Abdulhəsən dayı kəndin nüfuzlu ağsaqqallarındandır. O məşhur kinoda deyildiyi kimi, bu kəndin heç bir xeyir-şəri onsuz olmur. Uzun müddət məsul vəzifələrdə çalışıb. Hazırda rayonda Ağsaqqallar Şurasının sədridir.

Ağsaqqal aramızdakı yaş fərqini zərgər dəqiqliyi ilə hesablayırmış kimi, sınayıcı bir maraqla soruşur:

– Necədir, ay oğul. Kəndimiz ürəyinə yatırmı?

Hisslərimi çox rahatlıqla büruzə verirəm:

– Vallah, bu qədərin təsəvvür eləmirdim, kəndiniz, doğrudan da, çox gözəldir. Həm də adama rahatlıq verən qəribə bir mənzərəsi var.

– Elədir, aran da olsa Poladlının mənzərəsi də, havası da çox yaxşıdır, yayda o qədər də isti olmur.

## Poladlının narına söz ola bilməz

Bir-ik il əvvəl Hacıqabulun Udullu kəndində olmağım yadıma düşür. Bu yerlərə o qədər də nabələd olmadığımı göstərmək üçün deyirəm:

– Səhv eləmirəmsə, bura Udulluya yaxındı?

– Eyni yolun üstüdür, aramızda təxminən on iki kilometr məsafə var. Həm də eyni camaatıq, xeyir-şərimiz də birdir.

– Udullunun da narına söz ola bilməz…

– Ay sağolmuş, bizm kəndin narı da heç ondan geri qalmır, demək olar ki, eyni nardır. Yəqin, sizin məlumatınız yoxdur ki, əkin-biçinlə, maldarlıqla məşğul olsa da, Poladlı camaatının əsas gəlir mənbəyi narçılıqır.

Qobustan Rayon İcra Hakimiyyəti Başçısının Poladlı kəndi üzrə nümayəndəsi Teymur Ağayevdən aldığım məlumatlar da ağsaqqalın dediklərini bir daha təsdiqləyir. Yeri gəlmişkən, yerli camaatın təbirincə deyim ki, “kəndin yerli hökuməti” də cavandır. Və bu təyinat onların lap ürəyincədir.

Statistik rəqəmlər deyir ki, Poladlı camaatı heyvandarlıqla məşğul olsa da, (məlumat üçün qeyd edim ki, burada 2 mindən çox qaramal, 12500 başdan çox davar bəslənilir), əsas diqqət narçılığa yönəldilib. Nəticələr də uğurludur: hazırda kənddə nar bağları 90 hektar sahəni əhatə edir və ildə orta hesabla 1000 tondan çox nar yığılır.

## Oba igidi ilə öyünər...

Bir evin önündən keçəndə yol yoldaşım qapının ağzında dayanmış bir nəfərlə görüşür, hal-əhval tutur. Mən də görüşürəm. Bir az aralanan kimi deyir:

– Bilirsiniz o görüşdüyüm kişi kimdir?

Təbii ki, cavabımı bildiyindən tez də əlavə edir:

– Aprel döyüşlərində qeyri-adi şücaətlər göstərmiş Mirdamət Bağıyevin atasıdır, Səristan dayıdır. Yadınıza gələr, cənab Prezidentlə birlikdə şəkilləri də var.

Azərbaycan Ordusunun zabiti Mirdamət Bağıyev Aprel döyüşlərində misilsiz qəhrəmanlıq nümunəsi göstərmişdir. O, döyüşçü dostları ilə birlikdə ermənilərin 15 hərbi texnikasını , o cümlədən 5 tankını məhv etmişdir. Onun bu qəhrəmanlığını Ali Baş Komandan yüksək qiymətləndirmişdir. Prezident bir neçə zabitlə birlikdə onu qəbul etmiş və medalla təltif etmişdir.

Ağsaqqal Abdulhəsən dayı da söhbətə qoşulur və qürur hissi ilə deyir ki, Poladlı kəndinin yetirmələri Qarabağ uğrundakı döyüşlərdə mərdliklə vuruşmuşlar. Mahir Bəymirzə oğlu Kərimov müqəddəs şəhidlik məqamına yetişmiş Poladlının igid balasıdır. Onun xatirəsi bu kənddə hər zaman əziz tutulur. Kənd tam orta məktəbinə onun adı verilmiş, məktəbin həyətində abidəsi ucaldılaraq xatirəsi əbədiləşdirilmişdir.

Poladlının bir igid yetirməsinin də adını xüsusi vurğulamaq lazımdır. Aprel döyüşlərində misilsiz qəhrəmanlıq göstərmiş Ağayev Elvin Bəylər oğlu özü yaralı vəziyyətdə ola-ola ağır yaralanmış komandirini çiyninə alıb döyüş meydanından çıxarmışdır. Xüsusi təyinatlı qüvvələrdə xidmət edən bu igid döyüşçü də medalla təltif edilmişdir.

## Kənd sakinləri dövlətçiliyə sadiqdirlər

Həmin gün rayon icra hakimiyyətinin başçısı Adil Məmmədovun Poladlı camaatı ilə görüşü var idi. Artıq bir ənənə halını almış belə görüşlərdə kəndin qayğılarından bəhs edilir, problemlərinin həlli yolları axtarılır.

Beləcə, Poladlıda keçirilən növbəti görüşdə iştirak etmək füpsəti qazandım. Rayon rəhbəri ilə camaatın səmimi dialoqu fonunda keçən görüşdən aldığım əsas təəssürat bu oldu ki, doğrudan da, el bir olanda bütün çatışmazlıqları aradan qaldırmaq mümkün olur.

...Ehtimal olunur ki, kəndin ilk sakini Polad adlı həm varlıkarlı, həm də igid bir adam olub. Bu kənd onun şərəfinə “Poladlı” adlandırılmışdır. Hazırda Poladlı kəndi 8469 hektar əraziyə malikdir, 270 evdən ibarətdir və əhalisi 1808 nəfərdir. Kənddə bir orta məktəb, klub, kitabxana və ambulatoriya fəaliyyət göstərir.

… Təptəzə yolu, zəhmətkeş və qoçaq adamları olan bu



kənddə keçirdiyim bir neçə saatın təəssüratını tam ifadə etmək, sadəcə, mümkün deyil. Lakin əsas odur ki, bu təəssürat çox xoş və şirin idi, lap elə Poladlının özü kimi!

*Səməd HÜSEYNOĞLU,*
*“Xalq qəzeti”nin*
*bölgə müxbiri*